**UDC:** 32.; 323.; 324.; 329.
**LBC:** 60.81; 60.82; 60.88
**MJ №** 347
10.33864/2617-751X.2025.v8.i6.280-293

# A RETROSPECTIVE LOOK AT THE HISTORY OF THE EMERGENCE OF ISIS

**Jalal Abdullayev***

**Abstract.** This research evaluates the political situation in Iraq that emerged after the U.S.-led coalition forces invaded the country with the aim of overthrowing Saddam Hussein. It also examines the development stages of ISIS as a transnational terrorist organization. It is shown that ISIS has its roots in the group “Tawhid and Jihad,” founded in 1999 by Abu Musab al-Zarqawi. As the group grew stronger and its ambitions expanded, it changed its name several times: from 2004 it operated as “Al-Qaeda in Iraq” (AQI), and from 2006 as the “Islamic State of Iraq” (ISI). In 2013, ISI expanded into Syria and began calling itself the “Islamic State of Iraq and al-Sham” (ISIS). Finally, at the end of June 2014, it was announced that ISIS would henceforth be known as the “Islamic State” (caliphate). The declaration of the “Islamic State” (caliphate) was aimed at legitimizing ISIS’s occupation of vast territories, its crimes, and acts of barbarism by giving them a legal facade. Additionally, ISIS leaders intended to draw upon the religious, historical, and ideological significance of the caliphate concept, which traces back to the early years of Islam.

**Keywords:** Coalition Provisional Authority, Al-Qaeda in Iraq, Islamic State of Iraq, Sunni “Awakening” movement, ISIS, caliphate

---

* PhD student in the field of International Relations at Azerbaijan University of Languages; Baku, Azerbaijan
E-mail: calal.abdullayev00@gmail.com
https://orcid.org/0009-0006-1861-298X

**To cite this article:** Abdullayev, J. [2025]. A RETROSPECTIVE LOOK AT THE HISTORY OF THE EMERGENCE OF ISIS. *“Metafizika” journal, 8*(6), pp.280-293.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.280-293

***Article history:***
*Received: 25.03.2025*
*Accepted: 02.06.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.; 324.; 329.
**ББК:** 60.81; 60.82; 60.88
**MJ №** 347
10.33864/2617-751X.2025.v8.i6.280-293

# РЕТРОСПЕКТИВНЫЙ ВЗГЛЯД НА ИСТОРИЮ ВОЗНИКНОВЕНИЯ ИГИЛ

**Джалал Абдуллаев***

**Абстракт.** В исследовании оценивается политическая ситуация, возникшая в Ираке после военного вмешательства коалиционных сил под руководством США с целью свержения Саддама Хусейна, а также исследуются этапы формирования ИГИЛ как транснациональной террористической организации. Указывается, что корни ИГИЛ уходят к группе «Таухид валь-Джихад», созданной в 1999 году Абу Мусабом аз-Заркави. По мере усиления этой группы и роста её амбиций, она несколько раз меняла название: с 2004 года действовала под названием «Аль-Каида в Ираке» (АКИ), с 2006 года- как «Исламское государство Ирака» (ИГИ). В 2013 году ИГИ распространилось на территорию Сирии и стало называться «Исламское государство Ирака и Шама» (ИГИЛ). Наконец, в конце июня 2014 года было объявлено о переименовании ИГИЛ в «Исламское государство» (халифат). Объявление о создании «Исламского государства» (халифата) имело целью юридически оправдать оккупацию обширных территорий, преступления и варварские действия, совершаемые ИГИЛ, а также придать им легитимность. С другой стороны, лидеры ИГИЛ, провозглашая халифат, стремились использовать религиозное, историческое и идеологическое значение понятия халифата, восходящее к ранним годам ислама.

**Ключевые слова:** Временная коалиционная администрация, Аль-Каида в Ираке, Исламское государство Ирака, суннитское движение «Пробуждение», ИГИЛ, халифат

---

* Заочный докторант по специальности «Международные Отношения» Азербайджанского Университета Языков; Баку, Азербайджан
E-mail: calal.abdullayev00@gmail.com
https://orcid.org/0009-0006-1861-298X
**Цитировать статью:** Абдуллаев, Дж. [2025]. РЕТРОСПЕКТИВНЫЙ ВЗГЛЯД НА ИСТОРИЮ ВОЗНИКНОВЕНИЯ ИГИЛ. *Журнал «Metafizika», 8(6),* с.280-293.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.280-293

***История статьи:***
*Статья поступила в редакцию: 25.03.2025*
*Отправлена на доработку: 28.04.2025*
*Принята для печати: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.; 324.; 329.
**KBT:** 60.81; 60.82; 60.88
**MJ №** 347
10.33864/2617-751X.2025.v8.i6.280-293

# İŞİD-İN YARANMASI TARİXİNƏ RETROSPEKTİV BAXIŞ

**Cəlal Abdullayev***

**Abstrakt.** Tədqiqatda ABŞ-ın rəhbərliyi altında koalisiya qüvvələrinin Səddam Hüseyni devirmək məqsədilə İraqa hərbi müdaxiləsindən sonra ölkədə yaranmış siyasi vəziyyət qiymətləndirilir və İŞİD-in transmilli terror təşkilatı kimi formalaşmasının inkişaf mərhələlərini tədqiq edilir. Göstərilir ki, İŞİD-in kökləri 1999-cu ildə Əbu Musab əl-Zərqavi tərəfindən yaradılmış “Təvhid və Cihad Təşkilatı” qrupuna dayanır. Bu qrup gücləndikcə və ambisiyaları böyüdükcə adını bir neçə dəfə dəyişib, 2004-cü ildən “İraq Əl-Qaidəsi” (İƏQ), 2006-cı ildən “İraq İslam Dövləti” (İİD) adı altında fəaliyyət göstərib. İİD 2013-cü ildə Suriyaya genişlənərək “İraq və Şam İslam Dövləti” (İŞİD) adlandırılmağa başlayıb. Nəhayət, 2014-cü ilin iyun ayının sonlarında İŞİD-in adının yenidən dəyişdirilərək "İslam dövləti" (“xilafət”) adlandırıldığı bəyan edilib. “İslam Dövləti” (“xilafət”) elan edilməsi İŞİD-in geniş ərazini işğal edərək öz nəzarətində saxlamasına, törətdiyi cinayətlərə və barbar hərəkətlərinə hüquqi don geyindirmək, legitimləşdirmək məqsədi güdürdü. Digər tərəfdən, İŞİD rəhbərləri “xilafət” elan etməklə İslamın ilk illərində mövcud olmuş tarixi xilafətə gedib çıxan anlayışın dini, tarixi və ideoloji məzmunundan yararlanmaq niyyətində idilər.

**Açar sözlər:** Koalisiya Müvəqqəti Administrasiyası, İraq Əl-Qaidəsi, İraq İslam Dövləti, sünnü “Oyanış” hərəkatı, İŞİD, “xilafət”

* Azərbaycan Dillər Universitetinin “Beynəlxalq Münasibətlər ixtisası” üzrə qiyabi doktorantı; Bakı, Azərbaycan
E-mail: calal.abdullayev00@gmail.com
https://orcid.org/0009-0006-1861-298X

**Məqaləyə istinad:** Abdullayev, C. [2025] İŞİD-İN YARANMASI TARİXİNƏ RETROSPEKTİV BAXIŞ. *“Metafizika” jurnalı, 8*(6), səh.280-293.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.280-293

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.04.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Terrorizm müasir dövrdə qlobal təhlükəsizlik və sabitlik üçün ən ciddi təhdidlərdən biri hesab edilir. XX əsrin sonlarında islam örtüyü altında terror təşkilatlarının, xüsusən də Əl-Qaidə tranşmilli terror şəbəkəsinin həyata keçirdiyi hücumlar bəşəriyyət üçün terror təhdidlərinin yeni çalarlarını üzə çıxardı və terrorçuluq təhdidlərinin qlobal xarakter daşıdığını göstərdi. XXI əsrin əvvəllərində yaranmış İraq və Şam İslam Dövləti (İŞİD) adı ilə tanınan terror təşkilatı qısa müddətdə həm hərbi gücü, həm də təbliğat vasitələri ilə beynəlxalq diqqəti cəlb etmişdir. Bu terror təşkilatı son illərdə dünyanın müxtəlif regionlarında və beynəlxalq səviyyəsində təhlükəsizlik mühitini əsaslı şəkildə dəyişmişdir. İŞİD, yalnız bir terror təşkilatı deyil, həm də özünü “dövlət“ kimi təqdim etməyə səy göstərmiş və faktiki olaraq beynəlxalq münasibətlərdə özünü yeni bir fenomen kimi biruzə vermişdir. Odur ki, İŞİD terror təşkilatının yaranması, onun formalaşmasını şərtləndirən tarixi şəraitin təhlili aktuallıq kəsb edir.

## 2.Metodologiya

Bu məqalənin əsas məqsədi İŞİD-in tarixi yaranma şəraitini və transmilli terror təşkilatı kimi formalaşmasının inkişaf mərhələlərini tədqiq etməkdən ibarətdir. Tədqiqatda əsasən müqayisəli analiz, mənbələrin təhlili və diskurs analiz metodlarından istifadə edilir, tarixi və siyasi təhlil aparılır. Təhlillər zamanı beynəlxalq təşkilatların hesabatları və akademik məqalələr əsas informasiya mənbəyi kimi istifadə olunur, bununla yanaşı, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının hesabatlarından və sahə araşdırmalarından əldə olunan məlumatlar müqayisəli şəkildə təhlil edilir.

## 3.Tarixi və siyasi kontekst

Qeyd edilməlidir ki, İŞİD-in yaranması 2001-ci il 11 sentyabrda Əl-Qaidə terror təşkilatının ABŞ-da həyata keçirdiyi terror hücumlarından sonra Vaşinqton tərəfindən elan edilmiş beynəlxalq terrorizmə qarşı qlobal müharibə strategiyası, o cümlədən Yaxın Şərqdə mövcud olan mürəkkəb siyasi və sosial şəraitlə bağlıdır.

ABŞ 2001-ci ilin 11 sentyabr terror hücumlarından sonra beynəlxalq terrorizmə qarşı qlobal müharibə elan edərək, terrorçuluqla mübarizəni ABŞ-ın xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevirdi. Bu doktrina təkcə terror təşkilatlarına qarşı deyil, həm də bu təşkilatları dəstəkləyən, onlara sığınacaq verən dövlətlərə qarşı preventiv hərəkətlərin həyata keçirilməsini nəzərdə tuturdu.

Bu kontekstdə Buş administrasiyası İraqı terrorçularla əməkdaşlıqda və kütləvi qırğın silahlarına (KQS) malik olması iddiaları ilə günahlandıraraq beynəlxalq sülhə təhlükə mənbəyi kimi göstərdi. ABŞ başda olmaqla antiiraq koalisiyasına daxil olan ölkələrin hərbi birləşmələri Səddam Hüseyni devirmək

və demokratik rejim formalaşdırmaq məqsədilə 21 mart 2003-cü ildə İraqa hərbi müdaxilə etdi [Blix H., 2004].

Koalisiya qüvvələri qısa müddət ərzində İraq silahlı qüvvələrini darmadağın edərək və Səddam Hüseyni devirdi, lakin daha vacib olan və ən çətin məsələni həll edə bilmədi. Belə ki, Səddam Hüseyn devrildikdən sonra ölkədə siyasi vakuum və xaos mühiti yarandı. İraqın müxtəlif etnik, tayfa və konfessiya qruplarının maraqlarını təmsil edən aparıcı partiyalar və hərəkatlar, regional siyasi güclər arasında ziddiyyətlərin güclənməsi ilə müşaiyət edilən daxili siyasi böhranın güclənməsi fonunda ölkədə terrorçuluq fəaliyyəti də daxil olmaqla, hüquqazidd zorakılıq halları az qala həyat normasına çevrildi. ABŞ-ın rəhbərliyi ilə tərəfindən yaradılan Koalisiya Müvəqqəti Administrasiyası (CPA), Baas Partiyasının bütün dövlət strukturlarından uzaqlaşdırılmasını (Debaaslaşma siyasəti) həyata keçirdi. Bu siyasət nəticəsində sünnülər dövlət strukturlarından kənarlaşdırıldı, İraq ordusunun buraxıldı və təhlükəsizlik təmin edilməsində böhranvəziyyəti yarandı, eyni zamanda ölkədə şiə-sünnü gərginliyinin dərinləşməsi baş verdi. Bu vəziyyət, xüsusən sünnü icmalar arasında narazılığın artmasına və radikal qrupların güclənməsinə səbəb oldu, İŞİD kimi qrupların sosial baza tapmasına və dəstək toplamasına güclü təkan verdi [Gerges, 2016].

**4.İŞİD-in yaranmasının ilkin mərhələləri**

Antisəddam koalisiyası dövlətlərinin hərbi müdaxiləsindən az sonra Abu Musab əl-Zarkavi tərəfindən 1999-cu ildə Əfqanıstanda yaradılmış və "Təvhid və Cihad Təşkilatı" (*Jama'at al-Tawhid wa al-Jihad* (*JTWJ*)) kimi tanınan terror qrupu İraqa müdaxilədən sonra fəaliyyətini bu ölkədə davam etdirməyə başladı [David S. Cloud. 2004]. Əl-Zərqavi hələ Əfqanıstanda olarkən Əl-Qaidənin ideologiyasını mənimsəmiş və "Təvhid və Cihad Təşkilatı" qrupunun fəaliyyətində daha radikal və zorakı metodlar tətbiq etmişdir. Məhz öz qəddarlığına və barbar metodlarına görə məhşurlaşan bu təşkilatın əsasında sonradan "İslam Dövləti" adlandırılan "İraq və Şam İslam Dövləti" (İŞİD) terror təşkilatı formalaşmışdı.

Abu Musab əl-Zarkavinin rəhbərliyi altında "Təvhid və Cihad Təşkilatı" qrupunun əksər hücumları ABŞ-ın rəhbərliyi altında fəaliyyət göstərən antiiraq koalisiyası qüvvələrinə qarşı yönəlmişdi. Lakin bu qrupun həyata keçirdiyi terror hücumları göstərdi ki, koalisiya qüvvələrindən başqa Zarkavinin özünün ənənəvi düşməni hesab etdiyi İordaniya və bütün dünyada sünnülər üçün başlıca təhdid adlandırdığı şiələr "Təvhid və Cihad Təşkilatı" qrupunun əsas hücum obyektləri sırasındadır [Lister Charles, 20014: 7].

Zarkavi hesab edirdi ki, onun rəhbərlik etdiyi terror qrupu işğalçı koalisiya qüvvələrini darmadağın etmək iqtidarındadır. O, həmçinin hesab edirdi ki, "Təvhid və Cihad Təşkilatı" İraqda formalaşmış xaosu öz maraqları naminə

istifadə edərək şiələri məhv etməli, sünnülərin müdafiəçisi qismində çıxış etməli və “islam dövləti” qurmalıdır.

Zarkavinin rəhbərliyi altında 2004-2006-cı illərdə terror hücumlarının miqyasını və sayını kəskin şəkildə artıran “Təvhid və Cihad Təşkilatı” daha çox xarici ölkə vətəndaşlarını oğurlamaqla və sosial şəbəkədə onların başının kəsilməsi kimi barbarlıq aktlarını nümayiş etdirməklə məhşurlaşdı [Jim Muir, 2017].

Həyata keçirdiyi terror hücumlarının miqyası və qəddarlığı görə məhşurlaşan “Təvhid və Cihad Təşkilatı” qısa müddət ərzində xarici döyüşçülər üçün geniş beynəlxalq işə götürmə şəbəkələri yaratdı və getdikcə cihad adı altında fəaliyyət göstərən terrorçular üçün artan mərkəzə çevrildi. Eyni zamanda Zərkavi 2004-cü ilin sentyabrında Usamə bin Ladenə beyət (and) edərək, ona və Əl-Qaidəyə sadiqliyini bəyan etdi. Odur ki, Zərqavinin rəhbərlik etdiyi qrup Əl-Qaidənin İraqdakı rəsmi qolu elan edildi və “Mesopotamiya Torpaqlarının Əl-Qaidəsi” *(Tanzim Qa‘idat al-Jihad fi Bilad al-Rafidayn)* adlandırıldı. Bu qrup həmin vaxtdan “İraq Əl-Qaidəsi” (İƏQ) kimi tanındı.

Zarkavi eyni zamanda İraqda fəaliyyət göstərən digər terror qrupları ilə əməkdaşlıq əlaqələri qurmaqda davam edirdi. O, 15 yanvar 2006-cı il tarixdə İraq Əl-Qaidəsinin (İƏQ) digər beş qrupla müttəfiq olduğunu və Şura əl-Mücahidin Məclisi (*Majlis Shura al-Mujahideen* (MSM)) yaradıldığını bəyan etdi. Şura əl-Mücahidin Məclisinin yaradılması, mahiyyət etibarı ilə, İraq Əl-Qaidəsinin İraqda İslam adı altında müqavimət hərəkatını nəzarətə götürmək istiqamətində ilk addım idi. Sonradan həm ayrı-ayrı yaraqlılar, həm də İslam pərdəsi altında fəaliyyət göstərən digər kiçik qruplar bu təşkilata qoşulmaqda davam edirdilər. Zarkavi 2006-cı ilin aprel ayında Şura əl-Mücahidin Məclisinin təsis edilməsini “*islam dövlətinin yaradılması üçün başlanğıc nöqtəsi*” adlandırmışdı. Həmin ilin may ayında ABŞ silahlı qüvvələrinin yayımladığı video-görüntülərə əsasən, Zarkavi bildirirdi ki, “*biz Allaha inanırıq ki, üç ay ərzində İslam Əmirliyi elan etmək üçün əlverişli şərait yaranacaq*” [Lister Charles, 2014: 8].

ABŞ-ın aviazərbələri nəticəsində 7 iyun 2006-cı il tarixdə Zarkavi Bağdadın şimalındakı gizli sığınacağında öldürüldü. İraq Əl-Qaidəsi (İƏQ) 12 iyun 2006-cı ildə misirli Abu Əyub əl-Məsrini Zarkavinin varisi və təşkilatın yeni lideri elan etdi. Şura əl-Mücahidin Məclisi öz növbəsində 12 oktyabr 2006-cı ildə bir neçə yeni cihadçı qruplala və sünnü tayfalarının liderləri ilə ittifaq yaratdıqlarını, üç gündən sonra isə 8 sünnü vilayətinin ərazisində “İraq İslam Dövləti” (*Dawlat al-‘Iraq al-Islamiyya*) təsis edildiyini bəyan etdi. Bəyanata əsasən, Abu Umar əl-Baqdadi “İraq İslam Dövləti”nin (İİD) lideri və “möminlərin rəhbəri” elan edilirdi. İraq Əl-Qaidəsinin rəhbəri Abu Əyub əl-Məsri 10 noyabr 2006-cı ildə “İraq İslam Dövləti”nin lideri Abu Umar əl-

Baqdadiyə beyət etdi. Abu Umar əl-Baqdadi Məsrini özünün müavini və İİD-in hərbi naziri təyin etdi [Lister Charles, 2014: 8-9].

Beləliklə, "İraq İslam Dövləti" İraq Əl-Qaidəsini və digər terror qruplarını birləşdirən çətir strukturu kimi yaradılmışdı. Abu Umar əl-Baqdadinin rəhbərliyi ilə "İraq İslam Dövləti"nin yaradılması İŞİD-in formalaşması və təkasmülündə dönüş nöqtəsi oldu. Qrupun adının "İraq İslam Dövləti" olaraq dəyişdirilməsi, ilk növbədə, imic yaratmaq üçün bir addım idi. Belə ki, sadə bir terrorçu qrup bundan sonra "dövlət" kimi təqdim olunurdu. İkincisi, bu hal onu göstərirdi ki, bu "dövlət"in rəhbərliyinin ərazi ələ keçirmək iddiaları var. Üçüncüsü, "İraq İslam Dövləti"nin yaradılmasının elan edilməsi adi terror qrupunun müəyyən ərazini nəzarətdə saxlayan və idarə edən hərbi-siyasi aktora keyfiyyətcə transformasiya olunduğunu nümayiş etdirmək məqsədi daşıyırdı.

**5.İraq sünnü "Oyanış" hərəkatınınn yaranması**

Qeyd edilməlidir ki, Zarkavinin rəhbərlik etdiyi İraq Əl-Qaidəsi və İslam pərdəsi altında fəaliyyət göstərən digər terror qrupları 2004-cü ilin əvvəllərindən ölkənin sünnü tayfaları yaşayan vilayətlərində, əsasən də Anbar vilayətində güclü mövqeyə malik idilər. Lakin bu qrupların yaraqlıları öz ideologiyalarına əməl edilməsini yerli əhalidən zorla tələb edirdilər. Lakin yerli sünnü tayfaları "təmiz islam" ideologiyasını qəbul etmək istəmirdilər. Bununla yanaşı, İraq Əl-Qaidəsi yerli tayfalarını Suriyaya yüklərin təhlükəsiz daşınmasını təmin etdiklərinə görə əldə etdikləri gəlirlərdən də məhrum etmişdilər. Öz ideologiyasını və orta əsrlərə aid qaydaları zorla qəbul etdirməsinə, o cümlədən yerli tayfaları ənənəvi olaraq əldə etdikləri stabil gəlirlərdən məhrum etməsinə, insanların oğurlanması və öldürülməsinə cavab olaraq yerli sünnülər İraq Əl-Qaidəsinə qarşı üsyana qalxmağa məcbur oldu [Майкл Вайс, Хасан Хасан, 2016: 98]. Yerli tayfaların liderləri İraq Əl-Qaidəsinin zorakı fəaliyyətinə və ənəvi gəlirlərdən məhrum etməsinə cavab olaraq gəncləri polis xidmətinə getməyə və İraq Əl-Qaidəsi ilə əməkdaşlıqdan imtina etməyə çağırdılar. Nəhayət, 2005-ci ilin sonunda Anbar vilayətində müxtəlif sünnü tayfaları İraq Əl-Qaidəsinə qarşı birləşdilər və 2006-cı ilin sentyabrında İraq Əl-Qaidəsinə qarşı "Anbar Qurtuluş Şurası" təsis etdilər, Abd əl-Səttar Rişavi Şuranın sədri təyin edildi [Myriam Benraad, 2011]. Beləliklə, yerli sünnü tayfalarının İraq Əl-Qaidəsinə qarşı mübarizəsinin aktiv fazasının əsası qoyuldi.

Nəhayət, ABŞ hökuməti ölkədə vəziyyətə nəzarəti bərpa etmək üçün sünnü tayfaları ilə əməkdaşlıq etməyin zəruri olması qənaətinə gəldi və sünnülərə dövlət aparatında vəzifələrin verilməsi və onların təhlükəsizliyinin təmin edilməsi, həmçinin maliyyə dəstəyinin verilməsi kimi vədlər verdilər. ABŞ hərbçiləri sünnü tayfalarının liderlərini terrorçuları dəstəkləməyi

dayandırmağa, koalisiya qüvvələri və İraq hökuməti ilə birlikdə terrorçulara qarşı mübarizə kampaniyasına qoşulmağa çağırırdılar. Sünnülər ABŞ hərçilərinin verdiyi vədlərə inandılar [Jim Muir, 2017]. Beləliklə, terror təşkilatlarına qarşı mübarizədə sünnü tayfalarının istifadə edilməsi ABŞ administrasiyasının strategiyasının əsas elementlərindən birinə çevrildi.

Bu yanaşma kontekstində sünnü tayfa liderləri İraq Əl-Qaidəsinə qarşı öz müqavimət dəstələrini yaratmağa başladılar. Anbar vilayətində 2006-cı ilin oktyabrında sünnülərin “Oyanış” (“*Sahwa”*) hərəkatı yaradıldı və 35 yaşlı Abd əl-Səttar Rişavi (Abu Rişa) İraqın digər sünnülər yaşayan bölgələrində də geniş dəstək alan bu hərəkatın lideri oldu. İraqın sünnü bölgələri. Abu Rişa “Anbar Qurtuluş Şurası”nın (*Majlis inqadh al-Anbar*) adını dəyişərək “Anbar Oyanış Şurası” (*Majlis al-Sahwa al-Anbar*) adlandırdı və tərkibinə çoxsaylı sünnü tayfalarının liderləri “Anbar Oyanış Şurası”na daxil oldu [Sam Dagher, 2007].

Bütün ölkə üzrə minlərlə sünnü döyüşçüləri “Oyanış” (“*Sahwa”*) hərəkatının sıralarına qoşuldular, qısa müddət ərzində sünnü “Oyanış” (“*Sahwa”*) hərəkatı ciddi siyasi qüvvəyə çevrildi və mahiyyət etibarı ilə onun hərbiləşdirilmiş dəstələri “İraq İslam Dövləti”nə qarşı mübarizənin aparıcı silahlı birləşmələrinə çevrildi [Sevdimaliyev R., 2023].

Sünnü “Oyanış” (“*Sahwa”*) hərəkatı döyüşçülərinin ABŞ və yerli təhlükəsizlik qüvvələri tərəfindən dəstəklənən fəaliyyətləri, onların ərazi haqqında geniş bilikləri ilə birləşərək, “İraq İslam Dövləti”nə qarşı mübarizədə yüksək effektivliyini sübut etdi və status-kvonun dəyişməsinə səbəb oldu. Nəticədə “Oyanış” hərəkatı silahlılarının dəstəyi ilə Amerika hərbçilərinin və İraq təhlükəsizlik qüvvələrinin 2010-cu ilin aprelində birgə həyata keçirdikləri əməliyyat nəticəsində “İraq İslam Dövləti”nin liderləri Abu Umar Baqdadi və Abu Əyub Məsri İraqın Anbar vilayətinin qərbində öldürüldülər [Roggio Bill, 2010]. Bütövlüklə, “Oyanış” hərəkatı silahlılarının dəstəyi ilə ABŞ silahlı birləşmələrinin və İraq təhlükəsizlik qüvvələrinin birgə səyləri nəticəsində 2010-cu ilin əvvəllərinə “İraq İslam Dövləti”nin yüksək vəzifəli şəxslərinin əksəriyyəti öldürülmüşdü və ya həbs edilmişdi, təşkilat faktiki olaraq rəhbərsiz qalmışdı, bütün maliyyə kanalları, o cümlədən Əl-Qaidənin Əfqanıstan və Pakistan bölmələri ilə əlaqələri bloklanmışdı.

“İraq İslam Dövləti” liderlərinin və yüksək vəzifəlilərinin öldürülməsi təşkilatın rəhbərliyində yaranmış boşluq nəticəsində Əl-Qaidənin mənzil qərargahı ilə öz fəaliyyətini koordinasiya etmək imkanları itirilmişdi. Belə bir şəraitdə Məclis Şurası 2010-cu ilin may ayında müstəqil şəkildə Abu Bəkr əl-Baqdadini “İraq İslam Dövləti”nin yeni lideri təyin etdi və onun rəhbərliyi altında təşkilat yenidən formalaşmağa başladı [Майкл Вайс, Хасан Хасан, 2016: 153-158].

Prezident B.Obamanın administrasiyası 2010-cu ildə Amerika hərbi birləşmələrinin İraqdan çıxarılması barədə qərar qəbul etdi. "İraq İslam Dövləti"nin yeni rəhbərliyi ABŞ administrasiyasının bu qərarını özünün qələbəsi kimi dəyərləndirdi və onu özünə yeni tərəfdaşlar toplamaq üçün təbliğat kimi istifadə etdi. Belə bir şəraitdə "İraq İslam Dövləti" Mosul, Fəllucə, Bağdad, Bəsrə və digər şəhərlərdə irimiqyaslı silsilə terror aktları həyata keçirməyə başladı. Təşkilat daim müxtəlif tipli partlayıcı qurğulardan, səssiz silahlardan istifadə etməklə improvizə edirdi. Şiə məsçidləri, hökumət obyektləri, blokpostlar, ölkənin sıravi vətəndaşları "İraq İslam Dövləti" üzvlərinin həyata keçirdiyi terror aktlarının əsas hədəflərinə çevrilmişdilər [Севдималиев Р., 2011: 294-296].

**6.Suriyada vətəndaş qarşıdurması və İŞİD-in elan edilməsi**

Şimali Afrika ölkələrində baş vermiş "ərəb baharı"nın dalğaları 2011-ci ilin əvvəlində özünü Suriyada da göstərməyə başaladı, həmin ilin mart ayında bu ölkədə kütləvi iğtişaşlar başladı və bu iğtişaşalar həmin ilin yay aylarında irimiqyaslı silahlı münaqişəyə – vətəndaş müharibəsinə çevrildi. Suriyada başlamış bu qarşıdurma "İraq İslam Dövləti"nin genişlənməsində və İŞİD-ə çevrilməsində dönüş nöqtəsi oldu.

Abu Bakr əl-Baqdadi Suriyada başlayan vətəndaş müharibəsi mübariz və ekspansiya üçün yeni perspektivlər açdığını anlayaraq, "İraq İslam Dövləti"nin fəaliyyət dairəsini bu ölkəyə genişləndirmək və öz təşkilatından Suriyaya emisarlar göndərmək qərarına gəldi. Baqdadi 9 aprel 2013-cü ildə audio müraciətlə müraciət edərək, bildirdi ki, "İraq İslam Dövləti" (İİD) Şam ərazisinə genişlənir və "Cəbhət ən-Nusra" İİD-in qoludur. Müraciətdə deyilirdi ki, "Cəbhət ən-Nusra"-nın "əmiri Abu Muhammad əl-Culani çoxlu həmkarlarımızla gizli missiya ilə Suriyaya göndərdiyimiz "İslam dövləti"nin əsgərlərindən biridir". Baqdadi müraciətində "İraq İslam Dövləti" və "Cəbhət ən-Nusra" adlarının artıq etibarsız olduğunu və "İraq İslam Dövləti"nin adının "İraq və Şam İslam Dövləti" (*al-Dowla al-Islaamiyya fii-il-I'raaq wa-ash-Shaam*) olaraq dəyişdirildiyini bildirirdi [Cole Bunzel, 2015: 25].

Beləliklə, Baqdadi "İraq İslam Dövləti" və "Cəbhət ən-Nusra"nın əsasında "İraq və Şam İslam Dövləti" (İŞİD) və ya "İraq və Levant İslam Dövləti" yarandığını bəyan etdi. Burada "Şam" və "Levant" Aralıq dənizinin Şərq sahilyanı regionu nəzərdə tutur və dəqiq sərhədləri barədə vahid mövqenin olmamasına baxmayaraq, bir qayda olaraq, Suriya, İraq, İordaniya, İsrail və Livan ərazilərini əhatə edir.

Lakin "Cəbhət ən-Nusra"nın lideri Culani Baqdadinin iki müxtəlif təşkilatı birləşdirmək cəhdlərini rədd etdi və Əl-Qaidə liderinə beyət edərək bildirdi ki, onun rəhbəri Baqdadi deyil, Əl-Qaidənin lideri Ayman əl-Zavahiridir [Cole Bunzel., 2015: 25].

Ayman əl-Zavahiri öz növbəsində Baqdadidən Suriyada bütün əməliyyatları dayandırmağı və onun ərazisini tərk etməyi tələb etdi. Lakin Baqdadi Əl-Qaidə liderinin tələblərinə məhəl qoymadı [Aaron Y.Zelin, 2014]. Odur ki, Əl-Qaidə 9 fevral 2014-cü ildə rəsmi olaraq İŞİD-dən imtina etdi və onunla əməkdaşlığa xitam verdiyini bəyan etdi.

**7.İraq hökumətinin sünnü "Oyanış" hərəkatını marginallaşdırmaq siyasəti**

Digər tərəfdən, Amerika hərbçiləri tərəfindən 2009-cu ildə sünnü "Oyanış" ("*Sahwa*") hərəkatı üzərində nəzarətin İraq hökumətinə həvalə edilməsi və 2010-cu ildə Amerika silahlı qüvvələrinin İraqdan çıxarılması qısa bir zamanda bölgədə baş verən hadisələrə ciddi təsir göstərdi və son nəticədə İŞİD-in qısa bir müddət ərzində güclü hərbi-siyasi qüvvəyə çevrilməsində önəmli rol oynadı. Əl-Maliki hakimiyyəti sünnü vilayətlərində təhlükəsizliyi təmin etmək məqsədilə 20% sünnü "Oyanış" döyüşçülərini polis və hökumət təsisatlarında işlə və maaşla təmin etməyə razılıq vermişdi. Əldə edilmiş razılaşmaya əsasən, "Oyanış" ("*Sahwa*") hərəkatının səylərinin nəticəsi olaraq sünnü tayfalarının nümayəndələrinin federal hakimiyyət orqanlarında təmsilçiliyi, dövlət strukturlarının fəaliyyətində iştirakı və s. təmin edilməli idi. Lakin ABŞ qüvvələrinin İraqdan çıxarılmasına qədər əldə edilmiş razılaşmaya riayyət edildi və müəyyən vaxtdan sonra vəziyyət kökündən dəyişdi. Belə ki, sünnü tayfaları ilə rəsmi Baqdad arasında münasibətlər kəskin şəkildə pisləşməyə başladı. Baş nazir Nuri əl-Maliki hakimiyyəti "Oyanış" hərəkatının üzvlərini dövlət strukturlarına inteqrasiya edilməsinə qarşı çıxırdı və bunun əvəzinə "Oyanış" hərəkatının döyüşçülərinin marginallaşması və ləğv edilməsi siyasəti həyata keçirirdi [Sevdimaliyev R, 2023].

Nuri əl-Maliki hakimiyyəti "Oyanış" ("*Sahwa*") hərəkatını zəiflətmək üçün onu maddi və maliyyə vasitələrindən məhrum etmək siyasəti yürüdürdü. Hökumət "Oyanış" ("*Sahwa*") hərəkatının mübarizə apardığı vilayətlərdə silah gəzdirməyə və saxlamağa məhdudiyyətlər tətbiq etmək barədə qərar qəbul etdi. Əl-Maliki hökuməti tərəfindən "Oyanış" hərəkatının döyüşçülərini terrorçuluqda, qeyri-qanuni silah saxlamaqda ittiham edilərək həbs edilirdilər. Hökumətin repressiyaları "Oyanış" hərəkatının liderlərinin qəzəbinə gəlmiş və onlar dəfələrlə hakimiyyəti belə davam edəcəyi təqdirdə əməkdaşlığı dayandıracaqları ilə hədələmişdilər. Yaranmış vəziyyətdən məharətlə yararlanan "İraq İslam Dövləti"nin rəhbərliyi 2010-cu ilin ortalarında "Oyanış" ("*Sahwa*") hərəkatının döyüşçülərini böyük həvəslə öz sıralarına qəbul edirdi və onlara İraq hökumətindən artıq məvacib təklif edirdi [Timothy Williams and Duraid Adnan, 2010].

Amerika silahlı qüvvələrinin İraqdan çıxarılmasından sonra Maliki hakimiyyəti sərt şəkildə konsolidə edərək sünnü tayfalarını sıxışdırmağa

başladı. Hakimiyyətin bu siyasətinə cavab olaraq 2012-ci ilin dekabrında Fəllucədə sünnülərin etiraz aksiyaları başladı və bütün ölkəyə yayılaraq bir ilə qədər davam etdi. Nəhayət, Nuri əl-Maliki hökuməti "Oyanış" ("*Sahwa*") hərəkatını ləğv etdi. Yüz minlərlə, "İraq İslam Dövləti"nə qarşı vuruşmuş iraqlı məvacibsiz qaldı və tərksilah edildi. Onların bir çoxu öldürüldı, digərləri həbs edildi, əksəriyyəti isə qaça bildi. Hakimiyyətin sünnülərə qarşı həyata keçirdiyi repressiv siyasət nəticəsində yaranmış münaqişə nəticəsində "Oyanış" ("*Sahwa*") hərəkatının çoxsaylı tərəfdarları 2012-ci ildən Anbar vilayətində hökumətə qarşı aksiyalara qoşuldu və bir çox "Oyanış" ("*Sahwa*") döyüşçüləri "İraq İslam Dövləti"nə qoşuldu [Hamza Hendawi, 2010].

Maliki hakimiyyəti sünnü etirazlarına qarşı sərt siyasət yeritməkdə davam etdi və 2013-cü ilin dekabrında Ramadidə və Fəllucədə təhlükəsizlik qüvvələri ilə aksiya iştirakçıları arasında şiddətli toqquşmalar baş verdi. Fürsətdən istifadə edən İŞİD bir neçə gündən sonra Fəllucəyə daxil oldular və aksiya iştirakçıları olan sünnülərlə birləşdilər. Beləliklə, İŞİD liderləri Anbarda öz mövqelərini möhkəmləndirmək üçün İraqdaxili məzhəblərarası münaqişədən istifadə etdilər. Sünnü tayfalarının liderləri isə, öz növbəsində, İŞİD-i öz müdafiəçiləri qismində gördülər. Beləliklə, Ramadi və Fəllucədə İŞİD-lə İraq sünnü tayfalarının alyansı baş tutdu və sünnü tayfalarının dəstəyi ilə İŞİD Fəllucə ilə Ramadini ələ keçirdi [Warrick, Joby, 2015: 299]. Bu İŞİD terrorçularının yeni ad atltında İraqda ilk ərazi ələ keçirməsi idi.

Beləliklə, ABŞ-ın rəhbərliyi ilə koalisiya qüvvələrinin müdaxiləsindən sonra İraq hökumətinin şiə dominantlığı əsasında qurulması sünnü çoxluğun təcrid olunmuş vəziyyətdə qalmasına gətirib çıxardı. Bu təcridlik və siyasi təmsilçilik çatışmazlığı sünnü icmasında radikallaşmaya və silahlı qruplara qoşulmağa səbəb oldu. Hökumətin şiələrə verdiyi dəstək və onların sünnü bölgələrdə apardıqları təzyiqlər İŞİD-in genişlənməsi üçün münbit şərait yaratdı. İŞİD məhz məzhəb zəmnində yaranan bu gərginlikdən istifadə edərək özünü sünnü itayfalarının müdafiəçisi kimi təqdim etdi. Ölkənin sünnü bölgələrində (Mosul, Tikrit, Anbar) təşkilatın sosial bazası genişləndi. Bu bölgələrdə yaşayan insanlar İŞİD-i, korrupsiyalara bulaşmış dövlət idarələrindən daha təsirli alternativ kimi qəbul etməyə başladılar.

**8."Xilafət"in elan edilməsi**

İŞİD 2014-cü ilin yayında İraqın şimal və qərb rayonlarında genişmiqyaslı hücumlara başladı və iyunun 10-da İraqın ikinci böyük şəhəri olan Mosulu ələ keçirdi. ABŞ Dövlət katibinin köməkçisi Brett Makqark (*Brett McGurk*) bəyanatında bildirirdi ki, Mosula hücum başlayanda hökumətin hərbi potensialı və ona inam o qədər zəifləmişdi ki, şəhər 24 saat ərzində təslim oldu. Bir ay ərzində İŞİD Tikrit şəhərini nəzarətə götürdü və Bağdada yaxınlaşa bildi. Bununla yanaşı, İŞİD 2014-cü ilin iyun ayında İraq ordusunun üçdən

artıq diviziyasını silahlandırmaq və təchiz etmək üçün kifayət qədər maşın, silah və sursat da ələ keçirmişdi. Silahlar İraq hökumətinin ilk növbədə Anbar və Səlah-əd-Din əyalətlərində, həmçinin Mosul, Kərkük və Diyaladakı anbarlarından ələ keçirilmişdi [Iraq at a Crossroads. 2014].

İŞİD-in mətbuat katibi Abu Muhammad əl-Adnani 29 iyun 2014-cü il müqəddəs Ramazan ayının birinci günü Abu Bəkr Əl-Baqdadinin rəhbəriliyi altında xilafətin yaradıldığını elan etdi. Bəyanatda deyilirdi ki, İslam dövləti Şurası toplaşdı və islam “xilafəti” yaratmaq, müsəlmanların “dövləti” üçün xəlif təyin etmək qərara aldı. Adnani bəyanatda “xilafət”i “bütün müsəlmanların müqəddəs arzusu” və “bütün cihadçıların ümid yeri” kimi təsvir edərək bildirirdi ki, bundan sonra qrup “İslam Dövləti” adlanacaq”, rəsmi kağızlarda və sənədlərdə “İslam Dövləti”nin adındakı “İraq” və “Şam” sözləri ləğv edilir. Həmçinin bildirilirdi ki, Abu Bəkr Əl-Baqdadi “xəlifə” təyin edildi və o, “bunu qəbul etdi və beləliklə dünya müsəlmanlarının lideri oldu”. Abu Bəkr Əl-Baqdadi “xəlifə” qismində ilk dəfə 4 iyul 2014-cü ildə icitmaiyyətə açıqlama verərək bildirdi ki, “İslam Dövləti” Suriyada Hələb vilayətinində əl-Babdan İraqın Salah əd-Din vilayətinə qədər 415 mil (670 km) uzunluğunda əraziyə nəzarət edir [Lister Charles. Isis:, 2014].

Bütövlüklə, 2014-cü ilin ikinci yarısında “İslam Dövləti” Suriyanın Hələb, Rakka, Deyr-əz-Zor vilayətlərini və İraqın Salah əd-Din, Əl-Anbar, Nineviya, Diyala vilayətlərini öz nəzarəti altına almışdı. Bu ərazilərdə 10 milyondan artıq əhali yaşayırdı və sahəsinə görə Birləşmiş Krallığın sahəsi ilə eyni ölçüyə bərabər idi. ABŞ-ın RAND Korporasiyasının tədqiqatlarına əsasən “İslam Dövləti” 2014-cü ilin sonlarında əhalisi 11 milyondan artıq olmaqla 100 min kv.km əraziyə nəzarət edirdi [Seth G. Jones et al., 2017].

**9.Nəticə**

İŞİD-in kökləri 1999-cu ildə Əbu Musab əl-Zərqavi tərəfindən yaradılmış “Təvhid və Cihad Təşkilatı” qrupuna dayanır. Bu qrup gücləndikcə və ambisiyaları böyüdükcə adını bir neçə dəfə dəyişib. O, 2004-cü ildə Əl-Qaidəyə sadiqlik andı içərək “Mesopotamiyada Əl-Qaidə” adlandırıldı və “İraq Əl-Qaidəsi” (İƏQ) kimi tanındı. İƏQ 2006-cı ilin əvvəlində digər terror qrupları ilə ittifaqda “Mücahidlər Şurası Məclisi” (MSM) yaratdıqlarını bəyan etdi. “Mücahidlər Şurası Məclisi” öz növbəsində bir sıra digər qruplar və sünnü qəbilələrinin liderləri ilə ittifaqda 2006-cı ilin oktyabrında səkkiz sünnü vilayətinin ərazisində “İraq İslam Dövləti” (İİD) adlı qurumun yaradıldığını bəyan etdi. İİD 2013-cü ildə Suriyaya genişlənərək “İraq və Şam İslam Dövləti” (İŞİD) adlandırılmağa başladı. Nəhayət, 2014-cü ilin iyun ayının sonlarında İŞİD-in adının yenidən dəyişdirilərək "İslam dövləti" adlandırıldığı bəyan edildi.

"İslam Dövləti" və ya "xilafət"in yaradılmasının elan edilməsi, Abu Bəkr əl-Baqdadinin "xəlifə" qismində ictimaiyyət qarşısında çıxışı İŞİD-in geniş ərazini işğal edərək öz nəzarətində saxlamasına, törətdiyi cinayətlərə və barbar hərəkətlərinə hüquqi don geyindirmək, legitimləşdirmək məqsədi güdürdü. Digər tərəfdən, İŞİD rəhbərləri "xilafət" elan etməklə İslamın ilk illərində mövcud olmuş tarixi xilafətə gedib çıxan anlayışın dini, tarixi və ideoloji məzmunundan yararlanmaq niyyətində idilər.

## REFERENCES

1. Blix, H. (2004). *Disarming Iraq*. New York: Pantheon Books, 285 p. (in English)
2. Gerges, F. A. (2016). *ISIS: A history*. Princeton University Press. (in English)
3. Cloud, D. S. (2004, February 10). Long in U.S. sights, a young terrorist builds grim résumé: On journey to Iraq, Zarqawi forged ties with al Qaeda, attracted own followers. *The Wall Street Journal*. https://www.wsj.com/articles/SB107637304525225137 (in English)
4. Lister, C. (2014, June 14). ISIS: What will militant group do next? *BBC News*. http://www.bbc.com/news/world-middle-east-28053489 (in English)
5. Lister, C. (2014, November). *Profiling the Islamic State* (Brookings Doha Center Analysis Paper No. 13). Brookings Doha Center. (in English)
6. Muir, J. (2017, October 17). 'Islamic State': Raqqa's loss seals rapid rise and fall. *BBC News*. http://www.bbc.com/news/world-middle-east-35695648 (in English)
7. Weiss, M., & Hassan, H. (2016). *Islamic State: Army of terror*. Moscow: Alpina Non-Fiction. (in Russian)
8. Benraad, M. (2011). Iraq's tribal 'Sahwa': Its rise and fall. *Middle East Policy Council*, *18*(1), 121–131. http://www.mepc.org/journal/middle-east-policy-archives/iraqs-tribal-sahwa-its-rise-and-fall (in English)
9. Dagher, S. (2007, May 3). Sunni Muslim sheikhs join U.S. in fighting al-Qaeda. *Christian Science Monitor*, 1–4. http://www.csmonitor.com/2007/0503/p01s04-wome.html (in English)
10. Sevdimaliyev, R. (2023). The rise and fall of the Iraqi Sunni Awakening Movement. *MGIMO Review of International Relations*, *16*(1), 177–200. (in English)
11. Roggio, B. (2010, April 19). US and Iraqi forces kill Al Masri and Baghdadi, al Qaeda in Iraq's top two leaders. *The Long War Journal*. http://www.longwarjournal.org/archives/2010/04/al_qaeda_in_iraqs_to.php (in English)

**12.** Sevdimaliev, R. (2011). *International terrorism and political-legal problems of combating it.* Moscow: INDIGO. (in Russian)
**13.** Bunzel, C. (2015, March). *From paper state to caliphate: The ideology of the Islamic State* (Analysis Paper No. 19). Brookings Project on U.S. Relations with the Islamic World. (in English)
**14.** Zelin, A. Y. (2014, June). *The war between ISIS and al-Qaeda for supremacy of the global jihadist movement* (Research Note No. 20). The Washington Institute for Near East Policy. http://www.washingtoninstitute.org/uploads/Documents/pubs/ResearchNote_20_Zelin.pdf (in English)
**15.** Williams, T., & Adnan, D. (2010, October 16). Sunnis in Iraq allied with U.S. rejoin rebels. *The New York Times*. http://www.nytimes.com/2010/10/17/world/middleeast/17awakening.html?pagewanted=all&_r=0 (in English)
**16.** Hendawi, H. (2010, August 6). Al-Qaida in Iraq offers cash to lure former allies. *Associated Press*. http://archive.boston.com/news/world/middleeast/articles/2010/08/06/al_qaida_in_iraq_offers_cash_to_lure_former_allies/?page=1 (in English)
**17.** Warrick, J. (2015). *Black flags: The rise of ISIS*. Doubleday, 344 p. (in English)
**18.** McGurk, B. (2014). *Iraq at a crossroads: Options for U.S. policy* [Statement before the Senate Foreign Relations Committee, 113th Cong.]. http://www.foreign.senate.gov/imo/media/doc/McGurk%20Testimony%20072414-Final%20Version%20REVISED.pdf (in English)
**19.** Jones, S. G., et al. (2017). *Rolling back the Islamic State*. RAND Corporation. https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RR1900/RR1912/RAND_RR1912.pdf (in English)